

*İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq...*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

## Azərbaycan Prezidenti:

# İkinci Qarabağ müharibəsi bizim şanlı zəfərimiz kimi tarixdə əbədi qalacaq

***Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı 44 gün davam etdi, müharibə ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Azərbaycan işğal aldındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, işğalçının torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.***

Prezident İlham Əliyev avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağının ucaldılması mərasimində çıxış edərkən Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi ilə bağlı deyib: “Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur”.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edildiyini vurğulayan dövlətimizin başçısı daha sonra bildirib: “Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər–Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi”.

Prezident İlham Əliyev Vətən müharibəsində ordumuzun əks-hücum əməliyyatını bir neçə istiqamətdə apardığını vurğulayaraq, hər istiqamətin önəmli olduğunu qeyd edib. Ölkə rəhbəri, eyni zamanda, müharibənin gedişində silahlı qüvvələrimizin inamlı hücumları ilə düşmənin müdafiə xəttinin yarıldığını, strateji nöqtələrin ələ keçirildiyini və bununla da Ermənistan ordusunun hərəkətlərinin demək olar ki, iflic vəziyyətə salındığını, nəticədə isə Kəlbəcərin kiçik bir hissəsinin döyüş meydanında yağılardan təmizləndiyini vurğulayıb. “Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi”, – deyə qeyd edib.

Beləliklə, Azərbaycan həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istədiyinə nail odu. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərləri hərbi güc hesabına azad edildi, bayrağımız o doğma yurd yerlərində sancıldı. Bununla da bütün dünya Azərbaycanın güc-qüdrətinin şahidi oldu.

Onu da xatırladaq ki, Vətən müharibəsində döyüşlərin şiddətli xarakter almasına, düşmənin müqavimət göstərməsinə baxmayaraq, Azərbaycan Ordusu 44 gün ərzində peşəkarlıq, qəhrəmanlıq nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu peşəkarlıq, qəhrəmanlıq nümunəsi sayəsində, cəsarət, hünər, əzm hesabına 44 gün çəkən İkinci Qarabağ müharibəsində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər düşməndən azad olundu. İşğalçının texnikası tamamilə məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində isə artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələrə çevrildi.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğalçıdan təmizləməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi.

Vətən müharibəsində əldə edilən parlaq qələbəmiz nəticəsində düşmən dövlət 30 il ərzində aparılan danışıqlar prosesində reallaşdırmaq istədiyinin heç birini həyata keçirə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi gerçəkləşmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planları isə tamamilə alt-üst oldu.

Yaxşı xatırlayırıq, 30 illik sülh danışıqları zamanı hər vəchlə Ermənistanın maraqlarının təmin edilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələri keçmiş DQMV-yə, o cümlədən, Şuşa şəhərinə girməsi, ümumiyyətlə, yaxın buraxılmırdı. Hətta keçmiş Şaumyan, indiki Goranboy rayonunun bir hissəsinin ermənilərin nəzarətinə verilməsi tələb edilirdi. Lakin böyük qələbə ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yeni bir reallıq yaratdı. Şuşa şəhəri də daxil olmaqla, Qarabağın böyük bir hissəsi Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Dövlətimizin başçısı bununla bağlı deyib: “Biz qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan–Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq. Əgər kimsə deyirsə ki, münaqişə həll olunmayıb, gəlsin desin, bunun həllini necə görür, nə həll olunmayıb? Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlənməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik. Kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik…”.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan Prezidenti:

# İkinci Qarabağ müharibəsi bizim şanlı zəfərimiz kimi tarixdə əbədi qalacaq

*(əvvəli 1-ci səhifədə)*

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılan mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, ölkəmizin ərazi bütövlüyünü gerçəkləşdirdi. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Qarabağla bağlı heç bir qərar verilə bilməz. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçın şəhid vermədən, qan tökülmədən geri qaytarılması da reallaşdı.

Şuşa şəhəri, Xocavənd, o cümlədən, Hadrut qəsəbəsi, Kəlbəcər, Ağdam və Laçının geri qaytarılması isə Qarabağa gedən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xəttlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi ilə yekunlaşdı.

Onu da vurğulayaq ki, Azərbaycanın zəfəri ilə Ermənistanın öz müqəddəratını təyinetmə ilə əlaqədar bütün iddiaları qüvvədən düşdü, bütün məsələlərin yalnız respublikamızın ərazi bütövlüyü prinsipinə əsasən həlli gerçəkləşdi.

Bəli, Azərbaycan bütün bu uğurlara müharibədə, döyüşdə əldə etdiyi möhtəşəm qələbə ilə nail oldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və siz – bu döyüşlərdə fəal iştirak edən insanlar yaxşı bilirsiniz ki, 30 il ərzində hansı istehkamlar qurmuşdular. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bir də ki, o bölgənin coğrafiyası özlüyündə bir istehkamdır. Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir. Düşmən 30 il bu torpaqlarda hazırlıq işləri görüb. Bu hazırlıq işləri onu göstərir ki, öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Əgər istəsəydi, bu məsələlərə nə üçün bu qədər vəsait ayırırdı? Bu, onu göstərir ki, bütün bu dövr ərzində – 30 ilə yaxın dövr ərzində düşmən, sadəcə olaraq, bizi aldadırdı, vasitəçiləri aldadırdı ki, onlar bizim torpaqlarımızdan çıxacaqlar. Bu, yalan idi və döyüş meydanında mövcud olan mənzərə bunu təsdiqləyir…".

Beləliklə, Vətən müharibəsində silahlı qüvvələrimiz tarixi zəferi ilə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya heç vaxt məğlubiyyətlə barışmayan Azərbaycan xalqının, nəhayət, öz yurduna, öz torpağına qovuşduğunu gördü. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə həyata keçirdiyi "güclü dövlət, güclü ordu" strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, indi isə Azərbaycan quruculuq mərhələsini, postmünaqişə dövrünü yaşayır. Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması ilə bağlı gərgin iş gedir. Zəngəzur dəhlizi başda olmaqla kommunikasiyaların açılması, sərhədlərin demarkasiyası və delimitasiyası prosesi və digər məsələlərin həlli istiqamətində tədbirlər görülür. Həm Qarabağda, həm Şərqi Zəngəzurda yeni elektrik xətləri, həmçinin ötürücü xətlər çəkilir, transformatorlar, yarımstansiyalar qurulur. Bütün bunlarla yanaşı, yol infrastrukturunun da bərpasına mühüm önəm verilir. Müharibədən sonra bu istiqamətdə başlanan işlər bu gün sürətlə davam etdirilir. Bərdə–Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna asfalt döşənməsinin sentyabr ayında yekunlaşması nəzərdə tutulur. Paralel olaraq Füzuli-Şuşa, Horadiz-Ağbənd yolları çəkilir. Zəngilan–Qubadlı–Laçın, eyni zamanda, Füzuli-Hadrut, Füzuli–Cəbrayıl yollarının tikintisi də sürətlə aparılır. Bütün bunlarla bərabər, Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yolun çəkilişi də diqqətdə saxlanılır. Bütün bu genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yaxın zamanlarda əhalinin yenidən öz doğma yurd-yuvasında məskunlaşdırılması nəzərdə tutulur.

Göründüyü kimi, bu gün Azərbaycan işğaldan azad edilən ərazilərdə nəhəng quruculuq işləri həyata keçirməklə bir daha bu torpaqların əsl sahibi olduğunu dünyaya göstərir. Belə olan halda rəsmi İrəvanın yenə də dinc dayanmaması, dövlət sərhədimizdə təxribatlar törətməsi işğalçı ölkənin hər şeydən əvvəl xalqının taleyi ilə oynadığını göstərir. Ancaq Ermənistan hakimiyyəti bilməlidir ki, əgər Azərbaycan yeni bir antiterror əməliyyatına başlayarsa, bunun nəticəsinə qatlanmaq onun üçün ikiqat çətin olacaq. Çünki yeni bir müharibə hərbi-iqtisadi baxımdan tükənən Ermənistanın bir dövlət kimi sonu deməkdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 26 avqust.- S.1;2.